UOT 343.1

# MƏHKƏMƏ İSTİNTAQININ PREDMETİ VƏ HƏDLƏRİ

**C.R.MÖVSÜMOV**
***Bakı Dövlət Universiteti***
***f.movsumov@mail.com***

*Məqalədə məhkəmə istintaqı predmeti, həmçinin məhkəmə baxışını şərtləndirən hallar nəzərdən keçirilir.*

**Açar sözlər:** hədlər, predmet, məhkəmə istintaqı, sübut etmə, qərar qəbul etmə qaydaları

Məhkəmə istintaqında məhkəmə (hakim) ancaq cinayət işinə düzgün baxılması və onun düzgün həlli üçün mühüm əhəmiyyətə malik olan faktları və halları tam, hərtərəfli və obyektiv müəyyən etməyə borcludur. Bu faktların və halların konkret dairəsinə cinayət prosesində sübutetmə predmeti deyilir.

Hər bir konkret cinayət işi üzrə sübutetmə predmeti – cinayət işi üzrə tədqiq və sübut edilməli olan bütün faktların və halların özəyini təşkil edir. C.H. Mövsümovun qeyd etdiyi kimi, cinayət işi üzrə müəyyən edilməli olan halların məcmusuna sübutetmə predmeti deyilir (1, 89).

İş üzrə müəyyən edilməli olan halların qabaqcadan müfəssəl siyahısını vermək qeyri-mümkündür. Cinayət işi üçün hansı faktların mühüm əhəmiyyətə malik olması və ya bilavasitə hansı halların sübut edilməsi məsələsinin həlli istintaqı aparılan cinayət işinin konkret xüsusiyyətlərindən asılıdır. Bununla belə qüvvədə olan cinayət-prosessual qanunvericilik təhqiqat, ibtidai istintaq aparılarkən və məhkəmədə cinayət işinə baxılarkən bəzi halların mütləq sübut olunmasını tələb edir (AR CPM-in 139-cu maddəsi). Prosessual hüquq ədəbiyyatında qeyd edilir ki, cinayət prosesi gedişində cinayət işinin xüsusiyyətlərindən asılı olaraq müəyyən edilməli olan halların dairəsinin daralması, yaxud genişlənməsi təbii xarakter daşıyır. Belə daralmalara adətən, sadə cinayət işlərində rast gəlinir. Əksinə, çoxepizodlu cinayətlərin istintaqı zamanı isə müəyyən ediləcək halların tədricən genişlənməsi müşahidə olunur. Ümumiyyətlə isə, müəyyən edilməli olan halların dairəsinin məhdudlaşması və ya genişlənməsi bütün kateqoriyadan olan cinayətlərdə müşahidə edilə bilər (4, 67).

Sübutetmə predmetinin həddən artıq məhdudlaşdırılması zamanı iş üçün

əhəmiyyəti olan hallar kifayət qədər ətraflı tədqiq edilmir, bəzi hallarda isə müəyyən edilməli olan hallar, ümumiyyətlə, tədqiqat dairəsindən kənarda qalır və bu da cinayət işinin araşdırılması keyfiyyətinə mənfi təsir göstərir. Sübutetmə predmetinin həddən artıq genişləndirilməsi isə adətən, işin tədqiqinin lüzumsuz olaraq artıq vaxt aparması ilə nəticələnir, vaxt itkisinə və əlavə məsrəflərə gətirib çıxarır.

Müasir cinayət-prosessual hüquq elmində sübutetmə predmeti ilə sübutetmə həddi bir-biri ilə sıx və qırılmaz surətdə bağlıdır. Əgər sübutetmə predmeti tədqiqat obyektidirsə, sübutetmə həddi sübutetmə predmetinə daxil olan halların tam yəqinliyi ilə müəyyən edilməsi üçün zəruri olan sübut materiallarının məcmusundan ibarətdir. Əgər sübutetmə predmeti məqsədi ifadə edirsə, sübutetmə həddi bu məqsədə nail olmaq üçün vasitədir. Sübutetmə həddi hər bir konkret cinayət işi üzrə sübut materiallarının elə bir həcmdə toplanmasını tələb edir ki, həmin materialların məcmusu işin düzgün həllini təmin etmiş olsun.

Qeyd etmək lazımdır ki, məhkəmənin fəaliyyəti ibtidai istintaq materiallarının əsasında inkişaf edir və bu materiallar müəyyən mənada məhkəmə baxışının, o cümlədən məhkəmə istintaqının həcmini və həddini müəyyən edir. Məhkəmə baxışı yalnız təqsirləndirilən şəxslər haqqında, həm də yalnız onların məhkəməyə verildiyi ittiham üzrə aparılır (5, 113; 6, 124). Belə ki, əgər təqsirləndirilən şəxs, yaxud onunla bağlı ittiham yoxdursa, deməli, məhkəmə baxışı və ya məhkəmə istintaqı haqqında da söhbət ola bilməz. Əlbəttə, bu, heç də o demək deyildir ki, təqsirləndirilən şəxsin iştirak etmədiyi halda məhkəmə baxışı təyin edilə bilməz. Söhbət ondan gedir ki, subyekti olmayan cinayət hadisəsi mövcud deyil və ola da bilməz.

Məhkəmə yalnız təqsirləndirilən şəxslə və onun barəsindəki ittihamla əlaqədar olaraq ibtidai istintaq zamanı toplanmış sübutları məhkəmə istintaqında bir daha araşdırır.

Göstərmək lazımdır ki, məhkəmə cinayət işinə baxarkən ibtidai istintaq materiallarına və müstəntiqin gəldiyi nəticələrə münasibət də tam sərbəst, müstəqildir. Belə ki, o, müstəntiqin gəldiyi nəticələrin nə təsiri altına düşə bilməz, nə də həmin nəticələrlə kifayətlənə bilməz və kifayətlənməməlidir. Çünki ibtidai istintaqın nəticələri istintaqda toplanmış sübutlara əsaslanır. Məhkəmə baxışında isə iş üzrə yeni hallar meydana çıxa və tərəflər ibtidai istintaqa tamamilə məlum olmayan yeni sübutlar təqdim edə bilərlər. Məhz bu göstərilənlər nöqteyi-nəzərindən məhkəmə istintaqı, artıq qeyd edildi ki, ibtidai istintaqın təkrarı deyildir.

Digər tərəfdən, məhkəmə baxışı gedişində məhkəmə (hakim) öz təşəbbüsü ilə, həmçinin də prokurorun və məhkəmə baxışının digər iştirakçılarının vəsatəti ilə yeni sübutlar toplamağa və onları yoxlamağa haqlıdır. Prosessual hüquq ədəbiyyatında göstərilir ki, məhkəmə baxışı gedişində məhkəmənin öz təşəbbüsü ilə və ya prokurorun, eləcə də cinayət prosesinin digər iştirakçılarının vəsatəti ilə toplanmış sübutların ətraflı yoxlanılması və araşdırılması zəruridir. Bu zaman məhkəmə ibtidai istintaqda toplanmış sübutlarla məhkəmə

baxışı gedişində toplanmış sübutları müqayisə edir, onların oxşar və fərqli cəhətlərini diqqətlə nəzərdən keçirir. Bu zaman hər hansı bir ziddiyyət meydana çıxdıqda məhkəmə dərhal onun səbəbini müəyyən etməli və həmin ziddiyyətin aradan qaldırılması üçün zəruri tədbirlər görməlidir. Əks təqdirdə həmin ziddiyyətli məqamlar çıxarılacaq hökmün qanuniliyinə və əsaslılığına mənfi təsir göstərə bilər. Ona görə də məhkəmənin həmin ziddiyyətlərdən vaxtında qaçması yalnız işin düzgün həllinin xeyrinədir (3, 193).

Qeyd etmək zəruridir ki, məhkəmə baxışı gedişində məhkəmənin təşəbbüsü və prokurorun, eləcə də məhkəmə baxışının digər iştirakçılarının vəsatəti ilə toplanan sübutlar bir çox hallarda ibtidai istintaqla müqayisədə nisbətən məhkəmə baxışında tədqiqatın həddinin genişlənməsinə səbəb olur. Sübutetmə həddinin belə genişlənməsi isə bəzən ittihamın dəyişməsinə, yeni ittiham üzrə, eləcə də yeni şəxs haqqında cinayət işinin başlanmasına səbəb olur.

Hər bir konkret cinayət işi üzrə müəyyən edilməli olan halların araşdırılmasında obyektiv mövqedən çıxış etməkdə təkcə ittihamı sübut edən sübutların toplanması deyil, həmçinin də ittihamı təkzib edən məlumatların toplanması vacib və zəruridir. Bunsuz ədalət mühakiməsinin humanist və demokratik mövqeyi haqqında danışmaq qeyri-mümkündür.

Göstərmək zəruridir ki, yalnız ittihamedici sübutların toplanması, bəraətverici sübutların toplanmasına səylər göstərilməməsi cinayət işinin birtərəfli, natamam, ittiham istiqamətində aparılmasına və nəticə etibarilə qanunçuluğun, hüquq qaydasının, eləcə də insan hüquq və azadlıqlarının pozulmasına səbəb olur. Ədalət mühakiməsinin tələbi isə məhkəmənin nə ittihamçı, nə də müdafiəçi deyil, məhz münsif rolunu oynamasını oynamasından ibarətdir. Məhkəmə ittihamedici, müdafiəedici deyil, müzakirəedici və araşdırıcı, nəhayət, həlledici orqandır.

Cinayət işi üzrə toplanmış ittihamedici və bəraətverici sübutlar çıxarılan mühüm cinayət-prosessual sənədlərdə - ittiham aktında və hökmdə öz ifadəsini tapmalıdır. AR CPM-in 351.1-ci maddəsinə uyğun olaraq məhkəmənin ittiham hökmü təqsirləndirilən şəxsin cinayətin törədilməsində təqsirli bilinməsi və onun barəsində cəza tədbirinin tətbiq edilməsi, cinayət qanunu ilə bilavasitə nəzərdə tutulduğu hallarda onun barəsində cəzanın tətbiq edilməməsi və ya cəzadan azad edilməsi barədə məhkəmə baxışının nəticələrinə dair yekun məhkəmə qərarını əks etdirir.

AR CPM-in 350-ci maddəsində isə şəxsə bəraət verilməsinin əsaslarından bəhs olunur. Belə ki, Məcəllənin 350.1-ci maddəsinə uyğun olaraq məhkəmənin bəraət hökmü təqsirləndirilən şəxsin cinayət məsuliyyətinə cəlb edildiyi məhkəməyə verildiyi ittiham üzrə cinayətin törədilməsində onun təqsirli olmaması haqqında məhkəmə baxışının nəticələrinə dair yekun məhkəmə qərarını əks etdirir.

Hələ keçən əsrin 60-cı illərinin sonuna doğru keçmiş SSRİ Ali Məhkəməsi Plenumunun "Məhkəmə hökmü haqqında" 1969-cu il 30 iyun tarixli qərarında deyilirdi ki, hökm çıxarılarkən məhkəmə iclasında baxılan bütün sübut-

lar qiymətləndirilməlidir. Məhkəmə bəraətverici hökm çıxararkən hökmün təsviri hissəsində müttəhimə bəraət vermək üçün əsas olan hallara istinad etməli, nəticə hissəsində isə müttəhimi təqsirsiz hesab edib qanunla müəyyən olunan hansı əsaslara görə müttəhimə bəraət verilməsini dəqiq göstərməlidir (2).

Məsələ ilə əlaqədar mülahizələrini formalaşdıraraq prof. C.H.Mövsümov yazırdı ki, ...sübutların ittihamedici və bəraətverici sübutlara bölünməsi tələb edir ki, əgər təhqiqat aparan şəxs, müstəntiq, prokuror və məhkəmə konkret şəxsi cinayət məsuliyyətinə cəlb etmək qərarına gəlirsə, bəraətverici sübutları mükəmməl yoxlamalı və bunları təkzib etməlidir. Məhkəmə ittiham hökmü çıxardığı hallarda da bəraətverici sübutları nə üçün rədd etdiyini əsaslandırmalıdır (1, 100).

## ƏDƏBİYYAT


1. Mövsümov C.H. Sovet cinayət prosesi: Dərslik . Bakı: Maarif, 1989, 218 s.
2. Сборник Постановлений Пленума Верховного Суда СССР , 1924-1986 гг.
3. Сереброва С.П., Томин В.Т. Образцы процессуальных документов: досудебное производство: Практическое пособие / Отв. ред. Н.Г.Соловьев. М.: Юрайт, 2000, 180 с.
4. Петуховский А.А. Уголовный процесс: Учебное пособие. М.: Юрид. лит-ра, 1998, 410 с.
5. Теория доказательств в советском уголовном процессе, М.: Наука, 1973, 203 с.
6. Чельцов-Бебутов М.А. Советский уголовный процесс, М.: Наука, 1982, 289 с.


## ПРЕДМЕТ И ПРЕДЕЛЫ СУДЕБНОГО СЛЕДСТВИЯ


**Дж.Р.МОВСУМОВ**


## РЕЗЮМЕ


В статье рассматриваются вопросы соотношения понятий пределов и предмета судебного следствия (разбирательства) как между собой, так и между понятиями предмета и пределов доказывания в суде. Автор анализирует обстоятельства, обуславливающие предмет судебного следствия, также устанавливающие предмет судебного разбирательства.



**Ключевые слова:** пределы, предмет, судебное разбирательство, доказывание, порядок принятия решений


## THE SUBJECT AND SCOPE OF JUDICIAL EXAMINATION


**J.R.MOVSUMOV**


## SUMMARY


The article studies questions of a parity of concepts in the scope and the subject of judicial examination (trial) between the concepts of the subject and the scope of proving in the court. The author analyzes the circumstances conditioning the subject of judicial examination, and establishing the proceeding subject.



**Keywords**: limits, the subject, judicial proceedings, proving, decision-making order